

UEFA 2012/2013-cü il mövsümündə Avropanın ən yaxşı oyunçusu adına on namizədin siyahısını açıqlayıb.

Siyahı UEFA-ya daxil olan ölkələrin jurnalistlərinin səsverməsi nəticəsində müəyyənləşib. Onluğa “Bavariya” klubundan dörd futbolçu – Tomas Müller, Frank Riberi, Aryen Robben və Bastian Şvaynştayqer daxildir. Bundan başqa Kriştianu Ronaldu (“Real”), Lionel Messi (“Barselona”), Zlatan İbrahimoviç (PSJ), Qaret Beyl (“Tottenxem”), Robert Levandovski (“Borrusiya”) və Robin van Persi (“Mançester Yunayted”) də ilk onluqda yer alıblar.